*17 iyun Tibb İşçiləri Günüdür*

# Müqəddəs peşə sahibləri



**“Tibbin insan cəmiyyəti ilə yaşıd bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə — insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Həkimlik sənəti öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir... Mən həkimləri çox sevirəm”.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

Hər il iyun ayının 17-də Azərbaycanda tibb işçilərinin peşə bayramı qeyd olunur. Xalqın sağlamlığının qorunması baxımından həyati əhəmiyyət kəsb edən bu sahənin uğurlarına, problem və çatışmazlıqlarına nəzər salınır.

Biz artıq XX əsri böyük ixtiralar və kəşflər əsri kimi yaddaşımızda dərk etməklə yanaşı, onun səhiyyəmizin inkişafında olan xidmətlərini də unutmuruq.

Hazırda milli səhiyyəmizin dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə dövlət səviyyəsində bütün zəruri tədbirlər görülür. Tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Verdiyi bütün vədlərə sadiqlik göstərən, hər bir azərbaycanlının Prezidenti olduğunu əməli işi ilə təsdiqləyən dövlət başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirir.

Ötən müddətdə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Prezident İlham Əliyev ölkə həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə ocaqlarının inkişafına, bu sahədə mövcud problemlərin tez bir zamanda aradan qaldırılmasına çalışır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır.

Dövlət tərəfindən səhiyyə problemlərinin tənzimlənməsinə, onun inkişafına ayrılan vəsait hər il artırılır. Əgər 2005-ci ildə səhiyyəyə ayrılan vəsait 110 milyon manat olduğu halda, 2015-ci ildə bu göstərici 777,5 milyon manat təşkil etmişdir. Bu göstəricilər bir daha dövlətimiz tərəfindən əhalinin saglamlığına olan diqqət və qayğının yüksək olmasını göstərir.

Səhiyyə sisteminə dövlət qayğısının gücləndirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında da əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Mühüm əhəmiyyət daşıyan bu Dövlət proqlamlarında bölgələrdə əhaliyə yüksək səviyyədə tibbi xidmətin göstərilməsini təmin edərək təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi – yeni xəstəxanaların, poliklinikaların inşası, onların texniki avadanlıqlar və zəruri tibb ləvazimatları ilə təchizatı məsələləri geniş əksini tapmışdır. Azərbaycan Prezidenti proqram çərçivəsində həyata keçirilən tədbirlərin icrasını daim nəzarətdə saxlayır, bölgələrə səfəri zamanı inşa olunmuş müasir tipli xəstəxanaların, poliklinikaların, diaqnostika mərkəzlərinin, ambulator-tibb ocaqlarının açılış mərasimlərində iştirak edir, mövcud çətinliklərin aradan qaldırılması üçün icra hakimiyyəti orqanlarına lazımi göstərişlər verir.

Dövlət başçısının imzaladığı Dövlət proqramlarının, verdiyi tövsiyə yə tapşırıqlara müvafiq olaraq həyata keçirilən əməli tədbirlərin nəticəsi kimi son illər səhiyyə müəssisələrinin fəaliyyətində dönüş yaranmış, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsi yaxşılaşmışdır. Bu sırada Milli Onkologiya Mərkəzi, Akad. Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Akad. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Respublika Perinatal Mərkəzi, Akad. M.Cavadzadə adına Respublika Uroloji Xəstəxanası, Azərbaycan Tibb Universitetinin klinikaları, Neftçilər Xəstəxanası, Kliniki Tibbi Mərkəz, Respublika Klinik Uşaq Xəstəxanası, Uşaq Nevroloji Xəstəxanası və digər müasir tibb obyektlərini qeyd etmək olar.

Əhalinin sağlamlığının təmin olunması xüsusi həssaslığı ilə seçilən bir sosial amildir. Burada dövlət tədbirləri ilə yanaşı, bəzən insanların şəfa tapması üçün əlavə köməyə ehtiyac yaranır.

Bu baxımdan Heydər Əliyev Fondunun həyata keçirdiyi səhiyyə layihələrinin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Fondun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə həyata keçirilən bu layihələr 2014-2015-ci illərdə səhhətindəki problemlər üzündən əziyyət çəkən minlərlə insanı yenidən sağlam həyata qaytarmışdır. Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud olan problemləri daha yaxşı görməklə ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, ələlxüsus tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqət və həssaslıqla yanaşmağa çalışır. “Talassemiyasız həyat naminə”, “Diabetli uşaqlara ən yüksək qayğı” və digər layihələr bu baxımdan Azərbaycanda və onun hüdudlarından kənarda böyük rəğbətlə qarşılanmışdır. Layihə çərçivəsində Talassemiya Diaqnostika Mərkəzinin istifadəyə verilməsi fondun ölkə səhiyyəsinə böyük töhfəsi olmuşdur.

Səhiyyə xidmətinin təşkilində və inkişafında tibb kadrlarının hazırlanması daim xüsusi diqqət tələb edən bir sahədir. Uzun illər Azərbaycan Tibb Universitetinin özünəməxsus kliniki bazaları olmadığından təhsilin təşkilində çətinliklər yaranırdı. Möhtərəm Prezident İlham Əliyevin 11 sentyabr 2007-ci və 28 aprel 2010-cu illərdə Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının genişləndirilməsi barədə imzaladığı sərəncamlar nəticəsində bu gün Azərbaycan Tibb Universitetinin ən müasir təhsil və müalicə avadanlıqları ilə təmin edilmiş terapevtik və cərrahiyyə klinikaları fəaliyyət göstərməkdədir. Bu klinikalarda tibbi təhsilin və beynəlxalq konqreslərin keçirilməsinə, terapevtik və cərrahi xəstəliklərin müayinə və müalicəsi üçün ən yüksək tələblərə cavab verən şərait yaradılmışdır.

Səhiyyə xidmətinin təkmilləşdirilməsində həkimlərin Tibb Universitetini qurtardıqdan sonra müasir tələblərə uyğun hazırlanması daim diqqət mərkəzində olmuşdur. Fəqət uzun illər mövcud olan Sovet təhsil sistemi ilə həkimlərin tibbin bu və ya digər sahədə təkmilləşdirilməsi özünü doğrultmurdu. Bununla əlaqədar respublika Səhiyyə Nazirliyi həkimlərin təkmilləşdirilməsinin beynəlxalq tələblərə uyğun olaraq rezidentura vasitəsilə hazırlanmasını təşkil etmişdir. Hazırda yüzlərcə gənc həkimlər sərbəst tibbi fəaliyyətə başlamazdan öncə 4-5 il müddətində tibb mərkəzlərində rezidenturada kliniki hazırlıq keçməkdədirlər. Belə bir tələbat tibb müəssisələrində çalışan həkimlərə də şamil edilir. Belə ki, hər bir həkimin işlədiyi sahəyə uyğun olaraq hər 5 ildən bir imtahan verib sertifikat alması vacibdir.

Bütün dövrlərdə tibbin nailiyyətləri onun elminin inkişaf səviyyəsi ilə sıx əlaqədə olmuşdur. Bu gün Səhiyyə Nazirliyinin elmi mərkəzlərində, Azərbaycan Tibb Universitetinin və Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedralarında və laboratoriyalarında 260-dan çox tibb elmləri doktoru və 900-ə yaxın tibb üzrə fəlsəfə doktorları çalışırlar. Tibb sahəsində aparılan elmi axtarışların beynəlxalq əhəmiyyət kəsb edən səviyyəsi və bizim alimlərin yüksək reytinqi olan beynəlxalq jurnallarda çap olunan məqalələrinin sayı artmaqdadır.

Tibb elminin inkişafında və eləcə də beynəlxalq əlaqələrin yaradılmasında ölkəmizdə tibbin bir çox sahələri üzrə keçirilən beynəlxalq konqres və konfransların çox böyük rolu olmuşdur. Bu konqreslər yeni beynəlxalq əlaqələrin yaradılması, bizim gənc həkimlərin dünyanın tanınmış tibb mərkəzlərində təcrübə keçmələrinə əlavə imkanlar yaradır.

Beynəlxalq əlaqələrin genişləndirilməsində Səhiyyə Nazirliyinin Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlığı əsas göstəricidir. Respublika Səhiyyə Nazirliyinin ölkə vətəndaşlarının sağlamlığının Ümumdünya Səhiyyə Təşkilatının müəyyənləşdirdiyi standartlara uyğunlaşdırılması istiqamətlərində tədbirlər ardıcıllıqla həyata keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bölməsinin sessiyasının Bakıda keçirilməsi bu beynəlxalq əməkdaşlığın nə dərəcədə möhkəm olmasını bir daha göstərmiş oldu.

Əhaliyə göstərilən tibbi xidmətin böyük bir sahəsi cərrahiyyə xidməti ilə əlaqədardır. Bu gün kliniki cərrahiyyənin elə bir sahəsi yoxdur ki ölkəmizdə təmsil olunmasın. Bir çox tibbi mərkəzlərimizdə (Milli Onkologiya, Elmi Cərrahiyyə Mərkəzi və mərkəzi xəstəxanalarda) bir çox xəstəliklərlə əlaqədar aparılan radikal, rekonstruktiv və bərpaedici əməliyyatlar, orqanların köçürülməsi və s. uğurla aparılmaqdadır.

Uzun illər ölkəmizdə ürək xəstəlikləri ilə əlaqədar, xüsusilə anadangəlmə ürək qüsuru olan uşaqlarda cərrahi əməliyyatların aparılmasında çətinliklər mövcud idi. Hazırda Neftçilər və Mərkəzi Klinik xəstəxanalarında və Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin ürək cərrahlığı şöbələrində hər il minlərcə açıq ürək əməliyyatları aparılır.

Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində yaranmış uşaq ürək cərrahlığı şöbəsində hər il 300-dən çox anadangəlmə ürək qüsuru olan uşaqlarda açıq ürək əməliyyatları da uğurla həyata keçirilir.

Əlbəttə, yuxarıda göstərilən və bütövlükdə səhiyyənin bir çox sahəsində olan yenilikləri, nailiyyətləri əhatə edən mövcud inkişaf səviyyəsini təsvir etdikdə biz gələcək illərdə səhiyyəmizin inkişaf istiqamətlərini də düşünürük.

Burada səhiyyə problemlərinin məqsədyönlü planlaşdırılması, elmi nailiyyətlərin xəstəliklərin erkən diaqnostikasında və müalicəsində tətbiqi, insan sağlamlığına təsir göstərən zərərli faktorların öyrənilməsi ilə yanaşı, onların aradan qaldırılması, həkim kadrlarının və tibb müəssisələrinin maddi-texniki bazalarının getdikcə artan səviyyəyə uyğunlaşdırılması, epidemioloji xidmətlərdə olan problemlərin diqqət mərkəzində saxlanması, tibb işçilərinin sosial şəraitinin yaxşılaşdırılması, tibb sahəsində beynəlxalq əhəmiyyət kəsb edən əsaslı elmi axtarışların genişləndirilməsi, xəstəliklərin törənməsində genetik faktorların öyrənilməsi, texniki tərəqqinin nailiyyətlərinin praktiki təbabətdə tətbiqi və s. məsələlər bizi gələcək işlərə istiqamətləndirmiş olur.

Bütün bunlara əsasən inamla deyə bilərik ki, ulu öndər Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın sabit və davamlı inkişafının başlıca qarantı kimi çıxış edir. Ölkəmizə inamla rəhbərlik edən möhtərəm İlham Əliyev dahi öndərin qarşıda strateji hədəf kimi müəyyənləşdirdiyi əksər vəzifələrin həllinə nail olmuş, Azərbaycanı bütün sahələrdə dinamik inkişaf edən, məqsədlərinə doğru əzmlə irəliləyən dövlətə çevirmişdir. İnanırıq ki, xalqın siyasi iradəsi ilə bu siyasətin növbəti illərdə də davam etdirilməsi Azərbaycan səhiyyəsinin sürətli tərəqqisinə öz layiqli töhfələrini verəcəkdir.

**Böyükkişi AĞAYEV,**
**Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru.**